Alıoğlu S. Sənsiz keçirilən ad günü // Respublika. - 2023. - 31 may. - № 113. - S. 19.

Birinci və İkinci Qarabağ müharibəsində xocavəndli igidlərin qəhrəmanlığı, son da mla qanını Vətən torpağından əsirgəməyən döyüşçülərin şücaəti heç zaman unudul mur, yaddan çıxmır.
44 gün davam edən Vətən müharibəsinin ilk günlərindən 200 nəfər xocavəndli gən c döyüşlərdə iştirak edib.

Onlardan 41 nəfəri yaralanıb,
8 nəfər isə şəhid olub. Unutmayaq ki, bu rəqəmlərin arxasında böyük bir elin qəhrə manlığı, yurdsevərliyi, mərdliyi və vətəndaş qeyrəti dayanır.

Xocavənd torpağının yetirməsi, Muğanlı kənd sakini, silahlı qüvvələrimizin çavuşu Xəyal Xudaverdi oğlu Namazovun ad günü üç ildir ki, onsuz keçirilir. Bu münasib ətlə Xocavənd qəsəbəsində yerləşən "Şəhidlər" Abidə-
Kompleksində anım mərasimi keçirilib. Tədbir iştirakçıları şəhidlərin məzarları ön ünə qərənfillər düzərək, onların əziz xatirəsinə ehtiramlarını bildiriblər. Canlarını Azərbaycanın ərazi bütövlüyü uğrunda qurban vermiş Vətən müharibəsi şəhidlərini n əziz xatirəsinə dualar oxunub, xatirələri bir dəqiqəlik sükutla yad edilib. Şəhid X əyal Namazovun qısa, lakin şərəfli ömür yolundan iftixarla, qürurla söz açılıb, həm yerliləri onun igidliyi ilə fəxr etdiklərini bildiriblər.

Xəyal 2006-
cı ilin iyulunda ali təhsilini dayandıraraq Dövlət Sərhəd Xidmətində hərbi xidmət k eçib. Hərbi xidmətini Xudat sərhəd dəstəsinin sərhəd məntəqəsində 2008-
ci ilin yanvar ayında başa vurduqdan sonra ali təhsilini davam etdirib. 2014-
cü ildə müddətdən artıq hərbi qulluqçu kimi ordu sıralarında yenidən xidmətə başla yıb. Manqa komandiri kimi üzərinə düşən hərbi tapşırıqları layiqincə yerinə yetirib . 2016-
cı il Aprel döyüşlərində düşmənə qarşı cəsarətlə və igidliklə savaşıb, qarşıya qoyul an döyüş tapşırığının yerinə yetirilməsində xüsusi fəallıq nümayiş etdirib. Xəyal N amazov 2020-
ci ilin 27 sentyabrında başlayan Vətən müharibəsinin ilk günündən Füzuli istiqamə tində gedən döyüşlərdə iştirak edib. Qaraxanbəyli, Seyidəhmədli kəndlərinin azad olunmasında şücaət göstərib. 2020-ci il oktyabrın 3-
də ağır döyüşlərdə qəhrəmanlıqla həlak olub, şəhidlik zirvəsinə ucalıb. Prezident İl ham Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkə n göstərdiyi qəhrəmanlıq nümunəsinə görə milli ordumuzun çavuşu Xəyal Namazo

v ölümündən sonra "Füzulinin azad olunmasına görə",
"Vətən uğrunda" və "İgidliyə görə" medalları ilə təltif olunub.

Anım mərasimində çıxış edən Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz
Hüseynov Vətən müharibəsində əldə edilən tarixi qələbədən, qəhrəmanlıq tarixi ya
zan oğulların şücaətindən, şəhid Xəyal Namazovun döyüş yolundan ətraflı bəhs edi
b. Azərbaycanın ərazi bütövlüyü, suverenliyi uğrunda gedən 44 günlük müharibədə
xalqımızın bir yumruq kimi birləşərək həmrəylik, əzm və iradə nümayiş etdirdiyin
i, əsgərlərimizin, zabitlərimizin qəhrəmanlıq salnaməsi yazaraq, düşmən üzərində p
arlaq Qələbə qazandığını diqqətə çatdırıb. Xəyal kimi qəhrəman övladların igidliyi,
qəhrəmanlığı, şücaəti nəticəsində 30 illik vətən həsrətinə son qoyulduğunu, ölkəmi
zin ərazi bütövlüyünün təmin edildiyini və bu gün bizim qürurlu bir xalq kimi yeni
dən özümüzü təsdiq etməyimizi diqqətə çatdırıb. Şəhidin ailə üzvləri, müəllimləri,
döyüş yoldaşları şəhid ailələrinə və qazilərə göstərilən dövlət qayğısını yüksək qiy
mətləndiriblər.